## 13 oktyabr Dəmiryolçuların peşə bayramı günüdür

# Dəmir yolunda bu gün əldə olunan uğurlar aparılan məqsədyönlü islahatların nəticəsidir

**Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra bütün sahələrdə yüksək iqtisadi göstəricilərə nail olunmuşdur. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə yenidən Azərbaycana rəhbərlik kürsüsünə qayıtdıqdan sonra ölkə iqtisadiyyatında baş alıb gedən tənəzzülün qarşısı alındı, bütün sahələrdə məqsədyönlü islahatlar həyata keçirilməyə başladı. Aparılan islahatlar ölkə nəqliyyat sektorundan, o cümlədən dəmiryolu sahəsindən də yan ötmədi. Respublikanın nəqliyyat sektoruna xüsusi diqqət və qayğı ilə yanaşan ulu öndər bilirdi ki, müasir yol infrastrukturuna malik olmayan hər hansı bir dövlətin iqtisadi inkişafa nail olması mümkün deyil.**





Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş nəqliyyat siyasəti Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən bugünkü reallıqlar nəzərə alınmaqla uğurla həyata keçirilir. Nəqliyyatın bütün sahələri, o cümlədən dəmiryolu sektoru da yenidən qurulur, yeni dəmir yolları çəkilir, beynəlxalq əhəmiyyətli qlobal layihələr reallaşdırılır. Bu gün ölkə başçısı cənab İlham Əliyevin dəmir yolunun müasirləşməsi, dünya tələbləri səviyyəsində olması üçün qarşıya qoyduğu bütün məqsədlər son iki ildə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun rəhbərliyi, gərgin fəaliyyəti sayəsində vaxtında və yüksək keyfiyyətlə icra olunur. **Millət vəkili Cavid Qurbanovun** "Azərbaycan Dəmir Yolları" QSC-yə sədr təyin olunması ilə bu qurumun tarixində yeni bir inkişaf, yeniləşmə dövrünün başlanğıcı qoyuldu. Son vaxtlar beynəlxalq maliyyə qurumları ilə daha da intensivləşən ikitərəfli və çoxtərəfli əlaqələr dəmir yolunda geniş islahatların aparılmasına öz müsbət təsirini göstərir. Ölkəmizin bu gün dünya iqtisadi birliyinə sürətlə inteqrasiya etdiyi bir vaxtda, istər yük, istərsə də sərnişindaşımalarında artan tələbatın ödənilməsi üçün dəmir yolunda mühüm tədbirlər, böyük işlər görülür. Qarşıya qoyulmuş ən əsas məqsəd və məram dəmir yolu nəqliyyatının xidmətindən istifadə edən vətəndaşların məmnunluğunun təmin edilməsidir.

Son iki ildə dəmir yolunda ən müasir standartlara cavab verən texnologiyaların tətbiq olunması dövrü başlayıb. Enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçilməsi, işarəvermə və rabitə sisteminin yeniləşdirilməsi üzrə avadanlıqların alınması, yol təsərrüfatının sağlamlaşdırılması, lokomotiv və vaqon parkının yenilənməsi və digər sahələrin müasir standartlar səviyyəsinə çatdırılması üçün bir sıra mühüm tədbirlər həyata keçirilir.

2015-ci ildə 3100 müxtəlif təmayüllü yük vaqonları alınmış və istismar müddətini başa vurmuş vaqonların əsaslı təmir olunması işlərinə başlanılmışdır.

Ötən son iki il ərzində dəmir yolunun bütün təsərrüfatlarında təmir-tikinti işləri intensiv olaraq aparılır. Bakı və Sumqayıt şəhərləri arasında olan sərnişin sıxlığını aradan qaldırmaq məqsədilə 2015-ci ildə Bakı-Xırdalan-Sumqayıt sahəsində olan dəmir yolunun əsaslı təmirinə başlanılmış və sentyabr ayının 2-də işlər başa çatdırılmışdır. Bakı sərnişin, Xırdalan, Sumqayıt sərnişin stansiyalarının stansiya yolları və yoldəyişənləri yenilənmiş, Bakı-sərnişin və Sumqayıt-sərnişin stansiyalarında turniketlər və pos-terminallar quraşdırılmışdır. 2015-ci il sentyabrın 12-də Bakı sərnişin stansiyasında Bakı-Sumqayıt marşrutu ilə hərəkət edəcək "Stadler Raul Group" şirkətindən alınmış KİSS markalı ikimərtəbəli elektrik qatarlarının yolasalınma tədbiri keçirilmişdir. Tədbirdə Azərbaycan Prezidenti cənab İlham Əliyev iştirak etmişdir.

Quru nəqliyyatı ilə paytaxtımızın giriş qapısı sayılan Bakı sərnişin vağzalının yüksək səviyyədə, müasir dövrün tələbinə uyğun təmir olunması işləri qısa bir zaman kəsiyində həyata keçirilmişdir. Təmir işləri hörmətli Cavid Qurbanovun şəxsi nəzarəti və tövsiyələri əsasında aparılmış və təmir, yenidənqurma işlərində ən son texnoloji avadanlıqlardan istifadə edilmişdir. Vağzalın əsas binasının fasadı, memarlıq üslubunun saxlanması şərtilə, yenidən qurulmuş, vağzal binasının daxilində tam olaraq yenidənqurma işləri həyata keçirilib. Bilet kassaları, saxlama kameraları, sərnişin platformaları və s. ən müasir üslubda əsaslı təmir olunub, eskalatorlar yenisi ilə əvəzlənib. Bir sözlə, vağzalda dəmir yolunun xidmətindən istifadə edən sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılmışdır.

Yüksək keyfiyyətlə aparılan irihəcmli yenidənqurma işlərinin əsas tərkib hissələrindən biri də "Azərbaycan Dəmir Yolları" QSC-nin inzibati binasında əsaslı təmir işlərinin başa çatdırılmasıdır. Burada həyata keçirilən təmir-tikinti işləri də ən yüksək tələblərə uyğun şəkildə aparılmışdır.

"Azərbaycan Dəmir Yolları" QSC-də gedən yeniləşmə prosesinin əsas tərkib hissələrindən biri yolların əsaslı təmiridir. "MORAVİA STEEL" şirkəti ilə bağlanmış sazişə əsasən, Bakı-Böyük-Kəsik sahəsində 600 kilometr yolun əsaslı təmir olunmasıdır.

Ölkə başçısı cənab İlham Əliyevin tapşırığı əsasında "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqlarla təchiz olunmuş səyyar "ASAN qatar" sisteminin tətbiqi ilə bağlı xüsusi vaqonlar hazırlanıb və ötən ilin fevral ayının 1-dən etibarən istismara buraxılıb. Burada əsas məqsəd region sakinlərinə daha rahat və yeni innovativ üsullarla xidmət göstərilməsi və onların məmnunluğunun təmin olunmasıdır.

Onu da vurğulayım ki, son iki il ərzində bir sıra beynəlxalq əhəmiyyətli layihələrin icrası istiqamətində aparılan işlərin icrası sürətlənib. XXI əsrin əsas tikintilərindən biri olan və təkcə üç ölkəni və üç xalqı deyil, həmçinin onlarca ölkələr arasında körpü rolunu oynayacaq Bakı-Tbilisi-Qars dəmir yolu xətti bağlantısında işlər yekunlaşmaq üzrədir və bu yaxın zamanlarda istismara buraxılması gözlənilir. Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısının reallaşması gələcəyə hesablanmış bir addımdır və yolun istismara buraxılması ilə həm ölkəmiz, həm də yoldan istifadə edən dövlətlər yüksək mənfəət əldə edəcəklər.

Bu gün Azərbaycanın ən önəm verdiyi beynəlxalq nəqliyyat layihələrindən biri də "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizidir. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi Avropanı Cənubi-Şərqi Asiya ilə birləşdirir. Bu dəhlizin tam gücü ilə fəaliyyətə başlaması təqdirdə Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaqdır.

Son zamanlar Azərbaycan polad magistralında aparılan bütün islahatlar bu nəhəng arteriyanın müasirləşməsi və yeniləşməsinə, son nəticədə, yük daşımalarının həcminin artırılmasına, yüklərin və sərnişinlərin mənzil başına təhlükəsiz şəraitdə çatdırılmasına, ölkə vətəndaşlarına göstərilən xidmətin səviyyəsinin daha da yüksəldilməsinə hesablanıb.

"Azərbaycan Dəmir Yolları" QSC-də son illər həyata keçirilən islahatlara Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin kollektivi daim yardımçı olmuşdur. Dəmir yolunda çalışanların sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının qorunması, istirahətlərinin təşkili istiqamətində bir çox işlər həyata keçirilir. Bu işlərin həyata keçirilməsində gənc kadrların irəli çəkilməsi və onların əməyə cəlb olunması bizi olduqca sevindirir. Bu gün respublika komitəsi də həmkarların işinə gənc dəmiryolçuları cəlb edir. Builki hesabat-seçki iclasında 23 təşkilatda gənc dəmiryolçu həmkarlar ittifaqı komitələrinin sədri seçilmişdir. Onu vurğulayım ki, bu gün kadrların düzgün seçilib yerləşdirilməsi səhmdar cəmiyyətin rəhbərliyi ilə MHİRK arasında bağlanmış "Saziş" müvafiq qaydada həyata keçirilir, yeni işə qəbul və yaxud işdən azad olunma bütün hallarda həmkarlarla razılaşdırılır.



Ötən il aprel ayının 25-də Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin XXIII hesabat-seçki konfransında iştirak və çıxış edən "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, AHİK-in sədri Səttar Mehbalıyev MHİRK-in 5 illik fəaliyyətini müsbət qiymətləndirmişlər. Bu yüksək qiymət və göstərilən etimad kollektivimizi sevindirmiş və bizi dəmir yolunun inkişafı naminə daha əzmlə çalışmağa ruhlandırmışdır.

Həmkarlar təşkilatında "Həmkarlar İttifaqları haqqında" Qanuna və MHİRK-in "Nizamnaməsinə" uyğun struktur dəyişiklikləri aparılmışdır. Belə ki, səhmdar cəmiyyətin tabeçiliyində yeni yaradılan "5 saylı İxtisaslaşdırılmış Dəmiryol Müəssisəsi" MMC, "11 saylı İxtisaslaşdırılmış Dəmiryol Müəssisəsi" MMC, "ADY-ekspress" MMC-də həmkarlar ittifaqı təşkilatları yaradılmış və müvafiq qayda üzrə MHİRK-in birbaşa xidmətinə götürülmüşdür.

Bundan başqa, Yük Daşımaları təsərrüfatı işçiləri, Lokomotiv təsərrüfatı işçiləri, vaqon təsərrüfatı işçiləri Birləşmiş HİK-lər ləğv edilmiş və onların bazasında vahid Yük Daşımaları Departamentinin Birləşmiş HİK-i yaradılmışdır.

Hazırda 22000 nəfər üzvü olan Azərbaycan Dəmiryolçularının MHİRK 6 Birləşmiş və 104 ilk həmkarlar ittifaqı komitələrini əhatə edir.

Komitənin Plenum və Rəyasət Heyətinin iclaslarında dəmiryolçuların sosial-iqtisadi problemlərinin həlli, hüquqlarının qorunması, əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına və Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələblərinə riayət olunması, əməkhaqqı və digər müavinətlərin ödənilməsi, işçilərin ərizə və şikayətlərinin baxılmasının vəziyyəti, eyni zamanda bu istiqamətlərdə görülən tədbirlər müzakirə edilərək mövcud problemlər araşdırılmış və onların aradan qaldırılması üçün müvafiq qərarlar qəbul edilmiş və məsul işçilərə lazımi tapşırıqlar və tövsiyələr verilmişdir. Dəmiryolçuların Müstəqil HİRK-nin gündəlik qayğısı və daimi nəzarəti nəticəsində əməyin mühafizəsi məsələləri xeyli yaxşılaşmış, əməkçilərin zədə alma halları keçmiş hesabat dövrü ilə müqayisədə azalmışdır.

"Azərbaycan Dəmir Yolları" QSC rəhbərliyi ilə Müstəqil HİRK-nin birgə işini tənzimləyən ən mühüm sənəd Yolun sosial-iqtisadi inkişafına dair Cəmiyyətin rəhbərliyi ilə HİK-si arasında 05 mart 2017-ci il tarixli 2017-2019-cu illər üçün bağlanmış Sahə Sazişidir.

Komitənin iqtisadiyyat şöbəsi tərəfindən hesabat dövründə Departament, MMC, idarə və müəssisələrdə 250-yə yaxın yoxlamalar və təhlillər aparılmışdır. Yoxlamaların nəticəsi Komitənin Rəyasət Heyətinin iclaslarında müzakirə edilmiş, aşkar edilmiş çatışmazlıqlar və nöqsanlar aradan qaldırılmış, fəhlə və qulluqçulara ödənilməli olan 450 min manat əməkhaqqı və digər müavinətlər əməkçilərə qaytarılmışdır.

Əmək Məcəlləsinin 70-ci maddəsinin "b" və "ç" bəndləri ilə Həmkarlar İttifaqına işdən azad olunmaq üçün təqdim olunmuş əməkçilərdən 344 nəfərə razılıq verilməmişdir və nəticədə həmin işçilərin əmək hüquqları qanuna müvafiq qaydada qorunaraq onlar iş yerlərində saxlanılmışlar. Bundan başqa, Əmək qanunvericiliyinin pozulması nəticəsində tutduqları vəzifələrdən azad olunmuş fəhlə və qulluqçuların ərizə və şikayətlərinə Respublika Komitəsində baxılmış və 17 nəfər əvvəlki iş yerlərinə bərpa edilmişdir.

MHİRK-nin Rəyasət Heyətinin qərarına əsasən 22 müəssisə "İlin ən yaxşı müəssisəsi", 73 nəfər "Əla yol işçisi - ilin ən yaxşı mütəxəssisi" fəxri ada, 30 nəfər maşinist "F.Ağayev adına" mükafata layiq görülməklə qaliblərə, ümumilikdə, 45000 manat miqdarında pul mükafatı və lazım olan məişət avadanlıqları verilmişdir.

Dəmiryolçuların sosial problemlərinin həlli və maddi rifahlarının yaxşılaşdırılması "ADY" QSC-nin rəhbərliyi və Dəmiryolçuların MHİRK-nin daim diqqət mərkəzindədir. Nəzərinizə çatdırmaq istəyirəm ki, Səhmdar Cəmiyyətin rəhbərliyinin təşəbbüsü nəticəsində 2015-2016-cı illərdə dəmiryolçulara 150 mənzil ayrılmışdır. Peşə bayramı günündə də 30 dəmiryolçuya yeni mənzillər təqdim ediləcəkdir.

Sədrin göstərişinə əsasən ehtiyacı olan və növbədə olan dəmiryolçular da mənzillə təmin olunacaqdır.

Maddi vəziyyəti ağır olan dəmiryolçulara, qaçqın və məcburi köçkünlərə, şəhid ailələrinə Azad, BHİK və müstəqil HİRK tərəfindən ümumilikdə 820.000 (səkkiz yüz iyirmi min) manatdan çox maddi yardım göstərilmişdir. Dəmiryolunda çalışan işçilərin əməkhaqları son 2 ildə xeyli artıb. Əgər 2015-ci ilin yanvarında orta əməkhaqqı 280 manat idisə, hazırda isə 400 manata çatdırılıb.

Son illər 2000 nəfərdən artıq işçi AHİK-in xətti ilə ayrılmış yollayış vərəqələr hesabına sağlamlığını bərpa etmək üçün respublikanın müxtəlif sanatoriyalarında müalicə olunmuş və istirahət etmişlər.

"ADY" QSC-nin rəhbərliyinin qayğısı və yaxından köməyi sayəsində "Saziş"ə uyğun olaraq istirahət edənlərdən maddi vəziyyəti ağır olan 150 nəfərdən çox dəmiryolçuya 97000 manat məbləğində pulsuz yollayış vərəqələri verilmişdir.

Dəmiryolçuların nümunəvi istirahətini təşkil etmək "ADY" QSC-nin rəhbərliyinin və MHİRK-nin daim diqqət mərkəzində saxlanılır. Böyük qürur hissi ilə qeyd edə bilərəm ki, Nabranda tikilən istirahət mərkəzində 2012-2017-ci illərin yay mövsümlərində 7000 nəfərə yaxın dəmiryolçu və onların ailə üzvləri istirahət etmişlər.

Hazırda İstirahət Mərkəzində 5 yaşayış korpusu, 1 (bir) xidməti bina, yeməkxana, voleybol, bilyard, stolüstü tennis və trenajor zalları, su hovuzu, mini futbol, badminton və uşaq meydançaları, yay kafesi fəaliyyət göstərir.

Eyni zamanda daha 6 (altı) yaşayış kottecinin, 1 (bir) 16 mənzilli yaşayış binasının, diskoteka zalının tikintisi aparılmış və hazırda tamamlama işləri davam edir.

Təsadüfi deyil ki, "Transmilli şirkətlərdə həmkarlar ittifaqlarının yaradılması" mövzusunda Beynəlxalq Əmək Təşkilatı, Nəqliyyatçıların Beynəlxalq Federasiyası, Dəmiryolçuların və Nəqliyyat İnşaatçıların Həmkarlar İttifaqları Beynəlxalq Konfederasiyasının birgə seminarı 2015-ci ilin sentyabr ayında məhz Bakıda keçirilmişdir. Bundan başqa, Beynəlxalq Konfederasiyasının V Gənclər Forumu Respublika Komitəsinin "Lokomotiv" İstirahət Mərkəzində keçirilmişdir.

Azərbaycan Dəmiryolçularının MHİRK-nin Rəyasət Heyətinin qərarlarına müvafiq olaraq Nabranda "Lokomotiv" İstirahət Mərkəzinin idman meydançalarında dəmiryolçu kollektivləri arasında "Faşizm üzərində qələbə günü"nə və Dəmiryolçu gününə həsr olunmuş idman spartakiadaları keçirilmişdir.

Spartakiadanın nəticələrinə görə qaliblər müxtəlif məbləğdə qiymətli hədiyyələrlə mükafatlandırılmış və MHRİK-nin diplomları ilə təltif olunmuşlar.

Fürsətdən istifadə edib peşə bayramı münasibətilə bütün dəmiryolçuları təbrik edir, onlara cansağlığı, xoşbəxtlik diləyir, ölkə dəmir yolunun inkişafındakı fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıram.

**Fəzail BAĞIROV,**
**Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin (MHİRK) sədri.**